# Uşaqlara qayğı göstərilir

***Qəbələ Rayon Uşaq və Ailələrə Dəstək Mərkəzi şəhər 2 nömrəli tam orta məktəbində uşaq hüquqlarının müdafiəsinə həsr olunmuş tədbir keçirilmişdir.***

Şagirdlərin iştirak etdiyi tədbiri məktəbin direktoru Günel Ağayeva açmışdır. O, bildirmişdir ki, bu tədbir



“Uşaq hüquqlarının müdafiəsi aylığı” çərçivəsində keçirilir. Qeyd olunmuşdur ki, uşaq hüquqları dünyadakı bütün uşaqların doğulduqları gündən qanunla qorunan yaşama, sağlamlıq, təhsil və digər hüquqlarının məcmusudur.

Qəbələ Rayon İcra Hakimiyyətinin məsul işçisi Pərvin Məmmədov çıxışında qeyd etmişdir ki, BMT Baş Assambleyası 20 noyabr 1989-cu ildə «Uşaq hüquqları konvensiyası»nı qəbul etmişdir. Dünyada 193 dövlət- o cümlədən Azərbaycan da bu konvensiyaya qoşulmuşdur. Ölkəmizdə uşaq hüquqları hər tərəfli qorunur.

Birinci vitse-prezident, Heydər Əliyev fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ölkəmizdə kimsəsiz və az təminatlı ailələrin uşaqlarına xüsusi qayğı göstərilir.

Qəbələ Rayon Polis Şöbəsinin yetkinlik yaşına çatmayan uşaqlarla əlaqədar iş üzrə inspektoru, polis kapitanı Azər Hüseynov təmsil etdiyi orqanın uşaqların hüquqlarının qorunması sahəsində apardığı işdən, uşaqlar arasında qanun pozuntularının qarşısının alınması üçün görülən tədbirlərdən danışmışdır.

**İradə RƏSULZADƏ,**
**mərkəzin əməkdaşı.**
**Səfa Aslanov (foto).**

# “Xəmsə” intellektual oyunu üzrə rayon birinciliyi

***“Xəmsə” Milli İntellektual Oyunu üzrə yeniyetmələr arasında VII Azərbaycan Çempionatının oktyabrın 30-da Qəbələdə keçirilən rayon seçim mərhələsində 16 komandanın tərkibində 80 məktəbli öz intellektual biliyini nümayiş etdirib.***



Qəbələ şəhər 1 saylı tam orta məktəbdə təşkil edilən yarışın açılışında rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək, 9 noyabr - Dövlət Bayrağı Gününə həsr olunan çempionatın Azərbaycanın zəngin milli mədəniyyətini və tarixini təbliğ etmək, yeniyetmə və gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, eləcə də onların asudə vaxtlarının mənalı və səmərəli təşkilinə kömək məqsədi daşıdığını diqqətə çatdırıb.

Yekun nəticələrə əsasən, Vəndam qəsəbə 1 saylı tam orta məktəbin komandası birinciliyin qalibi adını qazanıb. Nohurqışlaq və Yenikənd kənd tam orta məktəblərinin komandaları müvafiq olaraq ikinci və üçüncü yerləri tutublar. Hər üç komanda “Xəmsə” Milli İntellektual Oyunu üzrə yeniyetmələr arasında VII Azərbaycan Çempionatının zona mərhələsinə vəsiqə qazanıb.

Qalib komandalara rayon gənclər və idman idarəsinin diplom və xatirə hədiyyələri təqdim edilib.



**Məhəmmədəli SƏFƏRÇİNOV,**
**Səhrab Umuyev (foto).**

# Peşə təhsili üzrə praktiki təlimlər davam edir

Pilot peşə təhsili mərkəzlərinin müəllim və mühəndis-pedaqoji heyətinin, eləcə də müəssisədaxili təlimçilərin səriştələrinin artırılması, müasir texnika ilə tanışlığı məqsədilə silsilə təlimlər davam edir.



“Qəbələ, Qax və İsmayıllı rayonlarında kənd təsərrüfatı və turizm sahələrində duala bənzər peşə təhsili və təlimi pilotlarının yaradılması” layihəsi çərçivəsində ”Sağmal inəklərin yemlənməsi” mövzusunda növbəti təlim xarici ekspert tərəfindən Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində keçirilib.

Təlimin nəzəri hissəsi Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində, praktiki hissəsi isə “Gilan Dairy Farms” MMC-nin heyvandarlıq təsərrüfatında keçirilib.

Qeyd edək ki, prosesinin davamlılığının təmin edilməsi məqsədilə iştirakçıların özlərinin də gələcəkdə müvafiq mövzularda sahibkarlara və həssas qruplara təlim keçməsi nəzərdə tutulub.

“Qəbələ, Qax və İsmayıllı rayonlarında kənd təsərrüfatı və turizm sahələrində duala bənzər peşə təhsili və təlimi pilotlarının yaradılması” layihəsi Avropa İttifaqı ilə Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi tərəfindən maliyyələşir və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti tərəfindən icra olunur. Layihənin məqsədi Qəbələ, İsmayıllı və Qax rayonlarında yerləşən 3 pilot peşə məktəbində Almaniyanın duala bənzər peşə təhsili və təlimi yanaşmasının tətbiqi ilə kənd təsərrüfatı və turizm sahələrində peşə təhsili və təliminin cəlbediciliyini artırmaq və əmək bazarına uyğunluğunu təmin etməkdir.

**«Qəbələ»**

# Bilirsinizmi?

● Kosmonavt Yuri Qaqarin 1968-ci ildə sınaq uçuşu zamanı təyyarədə qəzaya uğrayaraq həlak olmuşdur.

● ”Buran kosmik gəmisinin yaranmasında 8 azərbaycanlı iştirak edib.

● Azərbaycanın ilk qadın snayperi olan Ziba Qəniyeva İkinci dünya müharibəsi illərində 21 alman əsgər və zabitini öldürüb.

● Ən çox - 468 stansiya Nyu-York metropoliteni sistemindədir. Onları gəzib qurtarmaq üçün 23 saat vaxt lazımdır.

# İtmişdir

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam qəsəbə (əvvəlki kənd) sakini **Mustafayev Əlövsət Qərib oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 387 nömrəli (kod 40600048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 25 fevral 2005-ci il tarixdə Qəbələ rayonu **Tikanlı kənd dini icmasına** verilmiş 313 nömrəli (identifikasiya kodu 3269080) **Dövlət qeydiyyatı haqqında şəhadətnamə, icmanın nizamnaməsi, möhürü və ştampı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən 06 aprel 2011-ci il tarixdə Çuxur Qəbələ kənd sakini **Nəzirov Məzahir Vəli oğluna** verilmiş MA seriyalı 0162693 nömrəli (reyestr nömrəsi 406013008215, qeydiyyat nömrəsi 1911001035) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın **dövlət reyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.

“Kainat TT” ilə **Əhmədov İsmət Səhrab oğlu** arasında Bakı şəhəri, Badamdar qəsəbəsi, 6012-ci məhəllə 92c nömrəli yaşayış binasının 4-cü blokundan 11-ci mərtəbədəki 261 nömrəli **mənzil haqqında müqavilə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 19 yanvar 1998-ci il tarixli 13 saylı qərarı ilə Çarxana kənd sakini **İslamova Sənubər İlyas qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı 160B (kod 40604048) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Tikanlı kənd sakini **Məlikov Səlim Məlik oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 189 nömrəli (kod 40615018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Bum qəsəbə (keçmiş kənd) sakini **Umarov Həsrət Vahid oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 632 nömrəli (kod 40600038) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Bəyli kənd sakini **Həsənov Əzim Həsən oğluna** verilmiş JN seriyalı 0012 nömrəli (kod 40609028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti
qəzetinə
2020-ci ilin birinci yarısı üçün abunə yazılışına başlanmışdır
Yarımillik abunə qiyməti 15 manatdır.
***Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.***
***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***
**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).**
**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.**

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

## ALLAH RƏHMƏT ELƏSİN!

«Qəbələ» qəzetinin kollektivi qəzetin redaktoru **Varis Yaqubova** yaxın qohumu
**HİLALIN**
vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Redaktor
Varis Yaqubov.

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*
*Məsul katib*
*Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AİİB
33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1360*